Təhsil Nazirliyi ilə YUNİSEF-in birgə apardığı “Məktəb uşağın dostudur” layihəsi çərçivəsində Quba, Lənkəran və Masallı rayonlarının pilot məktəblərində keçirilən monitorinqlər artıq başa çatdırılıb.

Məlumat üçün qeyd edirik ki, monitorinqin məqsədi həmin rayonlarda pilot məktəblərin “Fəal təlimin tətbiqi” mövzusu üzrə treninqlərdən keçirilmiş ibtidai sinif müəllimlərinin iş təcrübəsi, məktəbdə fəal təlim metodlarının tətbiqi imkanları, real vəziyyət və mövcud problemlərin, eləcə də Valideyn-Müəllim Assosiasiyalarının fəaliyyətinin araşdırılmasından ibarət olub.

Monitorinq zamanı müəyyənləşdirilmiş məktəblərin direktorları və sinif müəllimləri ilə görüşlər keçirilib, müvafiq qrup I-IV siniflərdə keçirilən dərslərdə iştirak edib.